**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 401
10.33864/2617-751X.2025.v8.i8.196-207

# RISKS AND PROSPECTS OF THE US RETURN TO THE SOUTH CAUCASUS IN THE MODERN ERA

**Fatima Gulamirli***

**Abstract.** The South Caucasus is of great importance for US foreign policy due to its geographical location connecting Europe and Asia, its proximity to Russia, Iran and Turkey, and its role in the energy security of Europe and other regions. Taking into account the energy potential of the Caspian Sea and Central Asia, the region plays the role of a strategic transit hub for the Southern Gas Corridor, which allows US allies to reduce their energy dependence on Russia After the Second Karabakh War, new geopolitical realities have formed in the South Caucasus, and new players have begun to struggle for influence in the region, along with the traditionally dominant powers. In the current complex and dynamic situation, activating the South Caucasus policy is also of great importance for the prospects of the US Eurasian strategy. The prevention of armed conflicts in the region, peacebuilding, strengthening stability, and protecting secure trade and energy corridors remain key priorities. The return of the United States to the South Caucasus is a strategic step to maintain its influence in a region where multipolar competition is increasingly taking shape. The success of this return will depend on sustained diplomatic relations and the creation of alternative economic and security mechanisms to the proposals of other great powers.

**Keywords:** US policy in the South Caucasus, geopolitical competition in the South Caucasus, US-Russia confrontation, US-China competition, regional security environment

---

* Azerbaijan University of Languages, Department of International Relations, Senior Lecturer; Baku, Azerbaijan
E-mail: gulamirli@mail.ru
https://orcid.org/0000-0002-6722-686X

**To cite this article:** Gulamirli, F. [2025]. RISKS AND PROSPECTS OF THE US RETURN TO THE SOUTH CAUCASUS IN THE MODERN ERA. *“Metafizika” journal, 8*(8), pp.196-207.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.196-207

***Article history:***
*Received: 14.08.2025*
*Accepted: 09.09.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 401
10.33864/2617-751X.2025.v8.i8.196-207

# РИСКИ И ПЕРСПЕКТИВЫ ВОЗВРАЩЕНИЯ США НА ЮЖНЫЙ КАВКАЗ В СОВРЕМЕННУЮ ЭПОХУ

**Фатима Гюламирли***

**Абстракт.** Южный Кавказ имеет большое значение для внешней политики США благодаря своему географическому положению, связывающему Европу и Азию, близости к России, Ирану и Турции, а также роли в обеспечении энергетической безопасности Европы и других регионов. Учитывая энергетический потенциал Каспийского моря и Центральной Азии, регион играет роль стратегического транзитного узла для Южного газового коридора, что позволяет союзникам США снизить энергетическую зависимость от России. После Второй Карабахской войны на Южном Кавказе сформировались новые геополитические реалии, и новые игроки начали борьбу за влияние в регионе наряду с традиционно доминирующими державами. В нынешней сложной и динамичной ситуации активизация политики на Южном Кавказе также имеет большое значение для перспектив евразийской стратегии США. Предотвращение вооруженных конфликтов в регионе, миростроительство, укрепление стабильности и защита безопасных торговых и энергетических коридоров остаются ключевыми приоритетами. Возвращение Соединенных Штатов на Южный Кавказ является стратегическим шагом к сохранению их влияния в регионе, где все более четко проявляется многополярная конкуренция. Успех этого возвращения будет зависеть от поддержания дипломатических отношений и создания экономических и безопасных механизмов, альтернативных предложениям других великих держав.

**Ключевые слова:** политика США на Южном Кавказе, геополитическое соперничество на Южном Кавказе, конфронтация США и России, соперничество США и Китая, региональная безопасность

---

* Азербайджанский Университет Языков, кафедра международных отношений, старший преподаватель; Баку, Азербайджан
E-mail: gulamirli@mail.ru
https://orcid.org/0000-0002-6722-686X

**Цитировать статью:** Гюламирли, Ф. [2025]. РИСКИ И ПЕРСПЕКТИВЫ ВОЗВРАЩЕНИЯ США НА ЮЖНЫЙ КАВКАЗ В СОВРЕМЕННУЮ ЭПОХУ. *Журнал «Metafizika»*, *8*(8), с.196-207.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.196-207

***История статьи:***
*Статья поступила в редакцию: 14.08.2025*
*Отправлена на доработку: 09.09.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 401
10.33864/2617-751X.2025.v8.i8.196-207

# MÜASİR DÖVRDƏ CƏNUBİ QAFQAZDA GEOSİYASİ RƏQABƏT: ABŞ-NİN REGİONA QAYIDIŞININ RİSKLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**Fatimə Güləmirli***

**Abstrakt.** Cənubi Qafqaz Avropa ilə Asiyanı birləşdirən coğrafi mövqeyinə, Rusiya, İran və Türkiyəyə yaxınlığına, Avropanın və digər regionların enerji təhlükəsizliyində oynadığı rola görə ABŞ-ın xarici siyasəti üçün mühüm əhəmiyyət kəsb edir. Region Xəzər dənizinin və Mərkəzi Asiyanın enerji potensialını da nəzərə aldıqda Cənub Qaz Dəhlizi üçün strateji tranzit qovşağı rolunu oynayır ki, bu amil ABŞ-ın müttəfiqlərinə Rusiyadan enerjisi asılılığını azaltmağa imkan verir. İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yeni geosiyasi reallıqlar formalaşmışdır və regionda ənəməvi dominant güclərlər yanaşı yeni oyunçular da təsir dairəsi uğrunda mübarizəyə başlamışdır. Yaranmış mürəkkəb və dinamik vəziyyətdə Cənubi Qafqaz siyasətini aktivləşdirmək ABŞ üçün Avrasiya strategiyasının perspektivləri baxımından da vacib əhəmiyyət kəsb edir. Regionda silahlı toqquşmaların qarşısının alınması, sülhquruculuğu, sabitliyin gücləndirilməsi, təhlükəsiz ticarət və enerji dəhlizlərinin qorunması əsas prioritetlər olaraq qalır. ABŞ-ın Cənubi Qafqaza qayıtması çoxqütblü rəqabətin getdikcə daha çox əks olunduğu regionda öz təsirini saxlamaq üçün strateji addımdır. Bu qayıdışın uğuru davamlı diplomatik əlaqələrdən, digər böyük güclərin təkliflərinə altenativ iqtisadi, təhlükəsizlik mexanizmlərinin yaradılmasından asılı olacaq.

**Açar sözlər:** ABŞ-nin Cənubi Qafqaz siyasəti, Cənubi Qafqazda geosiyasi rəqabət, ABŞ-Rusiya qarşıdurması, ABŞ-Çin rəqabəti, regional təhlükəsizlik mühiti

* Azərbaycan Dillər Universiteti, Beynəlxalq münasibətlər kafedrası, baş müəllim; Bakı, Azərbaycan
E-mail: gulamirli@mail.ru
https://orcid.org/0000-0002-6722-686X

**Məqaləyə istinad:** Güləmirli, F. [2025]. MÜASİR DÖVRDƏ CƏNUBİ QAFQAZDA GEOSİYASİ RƏQABƏT: ABŞ-NİN REGİONA QAYIDIŞININ RİSKLƏRİ VƏ PERSPEKTİVLƏRİ. *“Metafizika” jurnalı, 8*(8), səh.196-207.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.196-207

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 14.08.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 09.09.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Cənubi Qafqazda baş verən dəyişikliklər birbaşa Avropa dövlətlərinin və dolayısı ilə ABŞ-ın milli maraqları baxımından xüsusi əhəmiyyət daşıyır. ABŞ regiona münasibətdə müəyyən dövrdə passiv siyasət aparsa da enerji və təhlükəsizlik maraqları baxımından, eyni zamanda bölgənin lojistik imkanlarına görə Cənubi Qafaz ABŞ başda olmaqla Qərb üçün özünün strateji əhəmiyyətini qoruyub saxlamaqdadır. Soyuq müharibədən sonra dünya nizamının inkişaf meyllərini təyin edən ABŞ-Rusiya rəqabətinin təzahür etdiyi məkan olan Cənubi Qafqaz bugün yeni güclərin regiona daxil olması ilə ABŞ-ın global strategiyası baxımından yeni çalar qazanmışdır. Artıq regiona təkcə Rusiya “yaxın xaric” prizmasından müstəsna təsir dairəsi kimi baxılmır, eyni zamanda region ABŞ-Çin rəqabətinin növbəti məkanına çevrilməkdədir. Bundan başqa Cənubi Qafqazın təhlükəsizliyi Mərkəzi Asiya, Yaxın Şərq, Aralıq və Qara dəniz hövzələrinin təhlükəsizlik sistemləri ilə sıx bağlıdır. Bu prizmadan yanaşdıqda Cənubi Qafqaz ABŞ-ın daha geniş Avrasiya strategiyasının əsas halqalarındandır. Formalaşmış yeni regional nizam və geosiyasi rəqabət fonunda ABŞ-ın Cənubi Qafqaza qayıdış imkanlarının, çağırışlarının və perspektivlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

## 2.İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yeni geosiyasi dəyişikliklər

Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda geosiyasi mənzərəni əsaslı şəkildə dəyişdi. İlk növbədə region ölkələri müstəqillik əldə etdikdən sonra formalaşmış olan, Rusiyanın dominantlığı və regional güclərin rəqabəti ilə səciyyələnən status-kvo dağıldı. Azərbaycan uzun müddət həyata keçirdiyi balanslı və çoxqütblü diplomatiyanın nəticəsində ölkənin əksinə olan qüvvələrin neytrallaşdırılmasına nail oldu. Həmçinin regionda lider ölkəyə çevrilərək yeni geosiyasi tendensiyaların formalaşmasında mühüm rol oynadı. Qərbin “qeyri-liberal” sülh quruculuğu kimi təhlil etdiyi Qarabağ müharibəsindən sonrakı dövrdə ABŞ-ın kənar oyunçuya çevrilməsinin əsas səbəbi ABŞ-ın özünün regiona münasibətdə passiv siyasət aparması idi.

İkinci Qarabağ müharibəsi regionda qüvvə balansını Türkiyənin xeyrinə dəyişdi. Azərbaycan-Türkiyə cəbhəsində strateji tərəfdaşlıq dərinləşərək iki dövlətin təhlükə anında qarşılıqlı müdafiə öhdəliyini yaradan Şuşa bəyannaməsinin imzalanması ilə daha da gücləndi. Azərbaycan 44 günlük müharibə nəticəsində cənub sərhədlərinə nəzarəti tam bərpa etdi ki, bu da İranın maraqlarına ciddi zərbə vurdu. Bundan başqa Azərbaycanın Türkiyə, Pakistan və İsrail kimi güclü tərəfdaşlarının regionda aktivləşməsi nəticəsində İran bu geosiyasi rəqabətdə uduzdu [Stawarz, 2022]. Müharibədən sonra İran özünün daxil edilmədiyi nəqliyyat- kommunikasiya layihələrinin

reallaşmasının qarşısını almaq məqsədilə Ermənistanla əlaqələrini dərinləşdirməyə çalışır.

İkinci Qarabağ müharibəsi ilə yanaşı Cənubi Qafqazda qüvvə balansını dəyişən digər bir hadisə Rusiyanın Ukrayna ilə müharibəyə başlaması olmuşdur. Rusiyanın Cənubi Qafqazda təsirinin zəifləməsi nəticəsində əslində ABŞ üçün yeni imkanlar yaranmışdı. ABŞ-ın regional təhlükəsizlik sistemində aktiv aktor kimi iştirakı regionda sabitliyi gücləndirməyə, Rusiyanın çəkilməsindən sonra regiona daxil olan yeni oyunçular arasında uzunmüddətli strateji tarazlığı təşviq etməyə, həmçinin çoxtərəfli təşəbbüsləri reallaşdırmağa kömək edə bilər [Mammadov, 2025].

Cənubi Qafqazda ümumi təhlükəsizlik evinin yaradılması ideyası mahiyyətcə yeni olmasa da 44 günlük müharibədən sonra bu barədə pragmatik fikirlər səslənməyə başlandı. Bu baxımdan ümidverici addımlardan biri müstəqillik qazandıqdan sonra üç Cənubi Qafqaz ölkəsinin ilk dəfə 2025-ci il aprelin 17-də xarici işlər nazirləri səviyyəsində görüşməsidir. Bu görüşlə region ölkələri sırf özlərinin dialoq və əməkdaşlıq platformasının yaradılmasını, üçtərəfli əməkdaşlığın mümkün yollarını müəyyən etməyi qarşıya məqsəd qoymuşdur [Mammadova, 2025]. Bu tendensiya regionun təhlükəsizliyi üçün yenidir və bir çox məqamdan xüsusi önəm daşıyır. Bilirik ki, region ölkələri müxtəlif müqavilələrlə və platformalarda xarici aktorlarla təhlükəsizlik bağlarına malikdir. Gürcüstanın təhlükəsizliyində ABŞ-la tərəfdaşlıq, Azərbaycan üçün Türkiyə, Pakistan kimi müttəfiqlər, Ermənistan isə Rusiya, indi isə Hindistan yönümlü siyasətlə milli təhlükəsizliklərini möhkəmləndirməyə çalışır. Belə olduqda isə region ölkələrində ümimi təhlükəsizik hissinin formalaşması ləngiyir və çox vaxt mümkün olmur. Vahid dialoq və əməkdaşlıq formatının yaradılması təhlükələrə və xarici təsirlərə qarşı birgə fəaliyyət mexanizmini qura bilər.

## 3.ABŞ-ın Cənubi Qafqaz siyasətinin qısa icmalı

Soyuq müharibədən sonra ABŞ üçün yeni və çevik yanaşmanın tələb olunduğu regionlardan biri də Cənubi Qafqaz oldu. Bölgə ABŞ-ın xarici siyasəti üçün tarixdə ilk dəfə müstəqil region kimi ortaya çıxmışdır. Belə ki, Cənubi Qafqaz tarixən Rusiya, İran və Türkiyənin təsir dairələri uğrunda mübarizə plasdarmı kimi, daha sonra isə SSRİ-nin tərkib hissəsi kimi ABŞ-ın global strategiyasından kənarda qalmışdır. Soyuq müharibənin bitməsi ilə region dövlətləri müstəqil xarici siyasət aparmağa və böyük güclərlə münasibətlərini formalaşdırmağa başladılar. Bipolyar nizamın dağılmasından sonra ABŞ-ın Cənubi Qafqaz siyasəti enerji, təhlükəsizlik və demokratik dəyərlərin inkişafı məsələlərini əhatə edirdi. Cənubi Qafqaz Avropa, Asiya və Yaxın Şərqin qovşağında strateji önəmə malik regiondur və ABŞ-ın regional strategiyasındakı dəyişikliklərin həm regional sabitlik, həm də qlobal güc balansına təsirləri var [Miholjcic Ivkovic, 2024].

Müasir dövrdə isə bu siyasətdə müəyyən dəyişikliklər - ABŞ-ın regionun demokratik inkişafında marağının azalması, bunun əvəzində enerji əməkdaşlığı və strateji mənafelərin ön plana çıxması müşahidə olunur. ABŞ region dövlətləri ilə münasibətləri fərqli müstəvilərdə və səviyyələrdə inkişaf etmişdir. Azərbaycan ABŞ-ın Avropalı müttəfiqlərinin və İsrailin enerji təhlükəsizliyi baxımından açar halqadır. Ermənistanın 44 günlük müharibədən sonra Rusiyapərəst mövqeyində dəyişiklik edərək Qərbə inteqrasiya hədəflərini bəyan etməsi ABŞ-Ermənistan münasibətlərinə yeni çalar gətirə bilər. Gürcüstan isə enerji resurslarının daşınmasında tranzit mövqeyini qoruyub saxlayır və ABŞ onun NATO-ya inteqrasiyasında maraqlıdır.

ABŞ-ın Cənubi Qafqaz siyasəti soyuq müharibənin bitməsindən Barak Obamanın prezidentliyi dövrünə qədər yüksələn xətt üzrə inkişaf etmişdir. Regiona ABŞ-ın Əfqanıstan və İraq müharibələrində mühüm strateji əhəmiyyət kəsb etmişdir. Eyni zamanda Yaxın və Orta Şərqdən gələn transmilli təhdidlərin, terrorçu fəaliyyətlərin Avropaya çatmamış məhv edilməsi baxımından Cənubi Qafqaz diqqət mərkəzində olmuşdur.

Rusiyanın Ukrayna müharibəsindən sonra Cənubi Qafqazın Rusiyadan yan keçən lojistik imkanları, Orta dəhlizin aktuallıq qazanması ABŞ-ın regiona münasibətini yenidən dəyərləndirmək zərurətini yaratmışdır. Hal-hazırda regionda Çinin liderlik etdiyi nəqliyyat-kommunikasiya layihələrinə meyllilik güclənir ki, bu da Cənubi Qafqazda yeni gücün dominantlığına gətirib çıxara bilər. Bu baxımdan Rusiya və getdikcə artan Çin təsirini məhdudlaşdırmaq məqsədi ABŞ-ın Cənubi Qafqaz siyasətinin lokomotivi olaraq qalır [Avdaliani, 2024].

## 4.ABŞ-ın Cənubi Qafqaz siyasətində yeni səhifə: sülh, əməkdaşlıq və tərəqqi

2025-ci in avqustun 8-i ABŞ-ın Cənubi Qafqaz siyasətində yeni səhifənin açılması ilə yadda qaldı. Azərbaycan və Ermənistan arasında otuz il davam edən münaqişə və ziddiyyətlərin aradan qaldırılması prosesi məhz Ağ evin təşəbbüsü ilə yekunlaşdı. Sülh prosesinin uğurunu sırf ABŞ-ın sülh diplomatiyası ilə bağlamaq düzgün olmasa da, uzunmüddətli danışıqlar prosesinin məhz okeanın digər tərəfində nəticəyə nail olması ABŞ-ın regiona qayıdışının ayaq səsləridir. Donald Tramp administrasiyasının vasitəçiliyi ilə əldə olunmuş razılaşmalar bir sıra məqamlara görə xüsusi əhəmiyyət kəsb edir. İlk öncə, Azərbaycan və Ermənistan sülh prosesinin aktoru kimi Minsk qrupunun fəaliyyətinin sona çatması ilə bağlı razılaşdılar. Bu qərar uzun illər danışıqlar prosesinində dominantlıq edən Rusiyanı, həmçinin Fransanı bir mediator kimi diskreditasiya etdi. Bu addım regionda iqtisadi sahədə sıx bağlara sahib olsa da, təhlükəsizliyin qarantı kimi Rusiyanın gələcək rolunu və təsirlərinin də şübhə altına aldı.

Digər tərəfdən Trampın razılaşmanı və sülhü şərhinin altındakı məna açıq aydın sezilirdi: ticarətin inkişafı və iqtisadi rifah. Məhz regiona daimi sülhün gəlməsi Cənubi Qafqazın (həmçinin Mərkəzi Asiyanın) zəngin təbii resurs, alternativ enerji və tranzit potensialını tam istifadə etməklə böyük iqtisadi layihələrin reallaşması üçün şərait yaranır. Ağ evin mətbuat katibi Anna Kelli sülhə gedən yolu açmaqla Cənubi Qafqaz regionunun ticarət, tranzit və enerji axınlarında böyük potensialının da açılacağını bildirmişdir [Mackinnon, Ivanova və Rathbone, 2025]. ABŞ-ın dövlət katibi Marko Rubio bu razılaşmanı hər iki ölkə üçün irəliləyiş və Cənubi Qafqaz regionunun iqtisadi potensialının açılmasına yönəltmək, Amerika xalqına, eləcə də Ermənistan və Azərbaycana ticarət sazişləri və rifah gətirəcək bir fürsət kimi dəyərləndirmişdir [Nadjafova, 2025]. Cənubi Qafqazda sülh ABŞ-ın digər regionlarda siyasətinin təkan verici qüvvəsidir. Belə ki, Cənubi Qafqazın çiçəklənməsi ABŞ-Rusiya münasibətlərində birmənalı şəkildə öz əksini tapır. Rusiyanı çəkindirmə və çevrələmə siyasəti üçün Cənubi Qafqazdın təsir dairəsindən birdəfəlik çıxması və müstəqil iqtisadi-ticarət qovşağına çevrilməsi vacib şərtdir. ABŞ üçün əldə olunmuş razılaşmalar Ermənistan və Azərbaycanı Rusiyaya qarşı yönəlmiş sanksiyalar cəlb etmək üçün fürsət kimi də dəyərləndirilir [Shalal, 2025].

Razılaşmanın ən əsas məqamlarından biri Cənubi Qafqazda sabitlik və qarşılıqlı iqtisadi fayda ilə nəticələnəcək nəqliyyat-kommunikasiya dəhlizi ilə bağlıdır. Tərəflər Zəngəzurdan keçməklər Azərbaycanı Naxçıvanla, geniş mənada isə Mərkəzi Asiyanı Türkiyə ilə, regionun enerji və ticarət potensialını Avropa dövlətləri ilə birləşdirəcək Beynəlxalq Sülh və Rifah üçün Tramp marşrutu (Trump Route for International Peace and Prosperity-TRİPP) barədə razılığa gəldilər. Bu ticarət-lojistika layihəsi uzun Cənubi Qafqazdı tranzit məkanına çevirməklə region dövlətləri arasında qarşılıqlı faydalı əməkdaşlığı təşviq edəcək. Bildiyimiz kimi, dövlətlər arasında qarşılıqlı iqtisadi asılılıq artdıqca onlar arasında müharibəyə meyllilik və münaqişə ehtimalı da azalır. Digər tərəfdən bu layihənin reallaşması Rusiya və İrandan keçən nəqliyyat-kommunikasiya xətlərinin aktuallığını və istifadəsini azaldacaq.

Vaşinqtonda əldə olunmuş razılaşmalardan biri Azadlığı Müdafiə Aktına edilmiş ABŞ-ın Azərbaycan hökumətinə hər hansı formada birbaşa yardımını qadağan edilməsini nəzərdə tutan 907-ci düzəlişin ləğv edilməsi ilə bağlıdır. Doğrudur, ABŞ-ın terrorla və diktatura rejimləri ilə mübarizəsində Azərbaycanın vacib rolunu nəzərə alaraq, 907-ci düzəliş dondurulurdu. Lakin onun normativ sənəd olaraq qalması, iki ölkənin müdafiə sahəsində əməkdaşlığının inkişafında maneə hesab olunurdur.

Əldə olunan razılaşmalardan biri də ABŞ və Azərbaycan arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması haqqında anlaşma memorandumudur. Qeyd edək ki, ABŞ 2009-cu ildə Gürcüstanla, 2025-ci ilin

yanvarında isə Ermənistanla anoloji razılaşmaları əldə etmişdir. Bu Xartiyalar ümumi strateji prioritetləri bölüşməklə təhlükəsizlik sahəsində əməkdaşlıq, iqtisadi inteqrasiya və siyasi dialoqu əhatə edir. Cənubi Qafqaz prizmazsında bu xartiyalar daha region dövlətlərinə gücləndirilmiş təhlükəsizlik təminatları verməklə, onların kənar təsir və təzyiqlərə qarşı daya güclü manevr imkanlarını formalaşdıra bilər.

**5.ABŞ-ın Cənubi Qafqaz siyasətinə çağırışlar**

İkinci Qarabağ müharibəsindən sonra ABŞ-ın Cənubi Qafqaz siyasətinə ən əsas çağırışlardan biri münaqişələrin tənzimlənməsi və sülh quruculuğunda onun marjinallaşması idi ki, onun regiondan çəkilməsi münaqişənin tənzimlənməsində Rusiyanın rolunun legitimləşməsi ilə nəticələnmişdir [Meister, 2021]. Müharibədən sonra Qarabağda qısa müddətlik də olsa Rusiya sülhməramlılarının yerləşdirilməsi, Türkiyə monitoring mərkəzinin fəaliyyəti regionda qüvvə nisbətinin bu iki dövlət tərəfə dəyişdiyini göstərirdi. Rusiyanın müharibə dövründə və sonrakı ilkin sülh danışıqları dövründə aktiv iştirakı Qərblə yanaşı, münaqişənin həlli üçün diplomatik platforma olan Minsk qrupunu da uzaqlaşdırmışdı.

Regionda müasir dövrdə müşahidə olunan əsas tendensiyalardan biri onun sürətlə çoxqübtlüləşməsidir ki, bu proses qeyri-Qərb dövlətlərinin təsirlərinin güclənməsini ehtiva edir. Cənubi Qafqazda təsirini artıran yeni oyunçulardan ABŞ-a müttəfiq və rəqib mövqedə olması regiona münasibətdə siyasətdə xüsusi diqqət tələb edir. Bir tərəfdən Hindistan, Yaponiya, İsrail kimi ABŞ-ın tərəfdaşları, digər tərəfədn isə Çin, İran, Pakistan, Körfəz ölkələrinin regionda aktivləşməsi ilə ziddiyyətli şəbəkə yaranmaqdadır.

Tramp dəhlizinin elan olunduğu gündən onun reallaşmasına qarşı İranın açıq-aşkar bəyanat verməsi müəyyən mənada skeptik yanaşmanı tətikləyir. İranın ali liderinin baş müşaviri Əli Əkbər Vilayəti planı Ermənistanın ərazi bütövlüyünü pozmağa yönəlmiş “siyasi xəyanət” kimi qiymətləndirərək ölkəsinin “*Rusiya ilə və ya Rusiyasız*” təşəbbüsün qarşısının alınacağı ilə bağlı fikir səsləndirmişdir [Aljazeera News, 2025]. Belə yanaşma İranın regional əməkdaşlıq, daimi sülhdən daha çox özünün maraqlarını ön plana çıxarması, geniş planda isə yenidən gərginlik ocaqları yarada biləcək status-kvonu saxlamaq cəhdi kimi qiymətləndirilir. Bu məqamda ABŞ diplomatiyasının qətiyyətli və davamlı addımlar atması vacib şərtdir. Cənubi Qafqazın yaxın tarixində məhz ABŞ-ın passiv və ya məsafəli yanaşmasının Rusiya-Gürcüstan müharibəsində Rusiyanın üstünlüyü ələ alması ilə nəticələnməsinin şahidi olmuşduq.

D.Trampın təşəbbüsü ilə imzalanmış sazişlərin reallaşması Rusiyanın yanaşması və ABŞ-Rusiya münasibətlərindəki əməkdaşlıq meyllərindən asılıdır. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova, ümumilikdə, ölkəsinin Azərbaycan və Ermənistan arasında sülh sazişinin

paraflanmasını "müsbət qiymətləndirməyə layiq" hadisə kimi şərh etsə də onun bəyanatındakı bir sıra məqamlar önəm daşıyır. İlk öncə, sülh prosesinin özəyinin məhz Rusiyanın vasitəçiliyi ilə qurulmasına, ABŞ-ın yekun cəhdinin əslində aysberqin görünən tərəfi olmasına diqqət çəkir: "*Regiondankənar oyunçuların cəlb edilməsi sülh gündəmini gücləndirməyə çalışmalı və əlavə çətinliklər və bölücü xətlər yaratmamalıdır*" [МИД РФ, 2025]. Digər bir məsələ onun isə Ermənistanın iqtisadi və təhlükəsizlik sahəsində Rusiya ilə sıx bağlarının olmasına diqqət çəkməsi (Ermənistan Avrasiya İqtisadi Birliyi üzvüdür), Tramp dəhlizinin keçəcəyi ərazının 1992-ci il müqaviləsi əsasında məhz Rusiya sərhədçiləri tərəfindən qorunduğuna istinad etməsi narahatlığın ifadəsidir. Bununla da Rusiya əslində regional təhlükəsizlik mexanizmlərində açar rolunu oynadığını xatırlatmağa çalışır. Bu baxımdan ABŞ İranla olduğu kimi Rusiya ilə regionda sülhü bloklayacaq istənilən bəyanat və addımın qarşısını almağa yönəlmiş qətiyyətli yanaşma nümayiş etdirməlidir. Tramp dəhlizi ABŞ-Rusiyanın 30 ildən çox region üzərində çəkişməli siyasətinin yeni mərhələsi, geosiyasi rəqabət vasitəsi kimi yox, bütün regional oyunçuların qarşılıqlıq faydalı əməkdaşlığını təşviq edəcək inkluziv layihə kimi təqdim edilməlidir. ABŞ-ın Cənubi Qafqazda yeni oyunçuların daxil olduğunu nəzərə alaraq əməkdaşlıq ritorikasına üstünlük verilməlidir.

Regionda sülh prosesinin çox kövrək olması, Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin ləngiməsi, region ölkələrinin müdafiə xərclərinin artması və dolayısı ilə bölgənin hərbiləşməsi ABŞ üçün ciddi çağırışdır. Regionda baş verəcək istənilən toqquşa enerji axınlarını ləngidə bilər və ABŞ-ın regionda mövcud iqtisadi maraqlarına təhdid yarana bilər.

**6.Nəticə**

Cənubi Qafqaz bütövlükdə Avrasiya regionunun geosiyasətində əsas bölgə kimi böyük güclərin diqqət mərkəzindədir. Region yaxın gələcəkdə ənənəvi enerji ilə yanaşı alternativ enerji təminatçısı, Mərkəzi Asiyanın zəngin enerji resurslarının Avropaya və digər regionlara ötürücüsü, beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin əsas halqası kimi strateji əhəmiyyətini artıracaq. Region Avropa dövlətlərinin enerji təminatının diversifikasiyası və onların Rusiyadan enerji asılılığının azaldılmasında ABŞ üçün xüsusi əhəmiyyət kəsb edir. Aydındır ki, Əfqanıstan müharibəsindən çəkilməsindan sonra ABŞ üçün region təhlükəsizlik perspektivindən daha az diqqət çəkməyə başladı. Buna baxmayaraq, ABŞ Çinin regional siyasətində olduğu kimi Cənubi Qafqazı iqtisadi və ticarət mənafelərinin qorunması baxımından daha yaxşı dəyərləndirməlidir.

D.Tramp administrasiyasının Azərbaycan və Ermənistan arasında sülh yaradılması üçün vasitəçiliyi "oyun"a yeni qaydalar gətirdi. Artıq ABŞ Cənubi Qafqazda bir neçə illik laqeyd yanaşmasında dəyişiklik edərək böyük addım atdı. İndi zəruri olan əsas məsələ əldə olunan razılaşmaların reallaşması üçün

davamlı və iddialı siyasət aparılmasıdır. Zənnimizcə, bunun üçün əsas addımlardan biri region ölkələri ilə siyasi-ideoloji müstəvidə mövcud ziyyətləri aradan qaldırmaq, regionda institusional-struktur mövcudluğa nail olmaqdır. Rusiya, Çin və İranla regional müstəvidə rəqabəti tənzimləmək üçün Cənubi Qafqaz dövlətləri ilə iqtisadi dəstək, diplomatiya, təhlükəsizlik elementlərinin ehtiva olunduğu uzunmüddətli strateji tərəfdaşlıq əlaqələrini saxlamaq vacibdir.

## 7.ƏDƏBİYYAT

1. Avdaliani, E. (2024, December 3). U.S. engagement in the South Caucasus under Trump. *Caucasus Watch.* Retrieved from https://caucasuswatch.de/en/insights/us-engagement-in-the-south-caucasus-under-trump.html
2. Iran rejects planned transit corridor outlined in Armenia-Azerbaijan pact. (2025, August 9). *Al Jazeera.* Retrieved from https://www.aljazeera.com/news/2025/8/9/iran-rejects-planned-transit-corridor-outlined-in-armenia-azerbaijan-pact
3. Mackinnon, A., Ivanova, P., & Rathbone, J. P. (2025, August 8). Trump rebrands trade route in Armenia-Azerbaijan peace deal. *Financial Times.* Retrieved from https://www.ft.com/content/fbcfa3b5-3422-412f-8888-cb13111b2099
4. Mammadov, A. (2025, May 7). Time to adjust the US approach to the South Caucasus. *Atlantic Council.* Retrieved from https://www.atlanticcouncil.org/blogs/turkeysource/time-to-adjust-the-us-approach-to-the-south-caucasus/
5. Mammadova, G. (2025, April 17). Historic first in Tbilisi: Armenia, Azerbaijan and Georgia trilateral talks. *Topchubashov Center*. Retrieved from https://top-center.org/en/expert-opinion/3743/historic-first-in-tbilisi-armenia-azerbaijan-and-georgia-trilateral-talks
6. Meister, S. (2021). Shifting geopolitical realities in the South Caucasus. *Stockholm Centre for Eastern European Studies.* Retrieved from https://www.ui.se/globalassets/evenemang/bilder-till-programmen/sceeus/shifting-geopolitical-realities-in-the-south-caucasus.pdf
7. Miholjcic Ivkovic, N. (2024, December 24). Trump 2.0: Will the South Caucasus see more engagement or neglect? *Caucasus Edition.* Retrieved from https://caucasusedition.net/trump-2-0-will-the-south-caucasus-see-more-engagement-or-neglect/
8. Nadjafova, M. (2025, August 9). Marco Rubio: We congratulate Azerbaijan and Armenia on a new era of peace. *Azertac.* Retrieved from

https://azertag.az/en/xeber/marco_rubio_we_congratulate_azerbaijan_and_armenia_on_a_new_era_of_peace-3693211

9. Shalal, A. (2025, August 9). Trump announces peace agreement between Azerbaijan and Armenia. *Reuters*. Retrieved from https://www.reuters.com/world/trump-announces-peace-agreement-between-azerbaijan-armenia-2025-08-08/
10. Stawarz, P. (2022). Changing power dynamics and new geopolitical reality in the South Caucasus. *Studia Wschodnioeuropejskie, 16*. Retrieved from https://swe.uw.edu.pl/16.4.pdf
11. Министерство иностранных дел Российской Федерации. (2025, August 9). Комментарий официального представителя МИД России М. В. Захаровой в связи с переговорами лидеров Азербайджана и Армении в Вашингтоне (США). *МИД России*. Retrieved from https://mid.ru/ru/foreign_policy/news/2040852/

## REFERENCES

1. Avdaliani, E. (2024, December 3). U.S. engagement in the South Caucasus under Trump. *Caucasus Watch*. Retrieved from https://caucasuswatch.de/en/insights/us-engagement-in-the-south-caucasus-under-trump.html (in English)
2. Iran rejects planned transit corridor outlined in Armenia-Azerbaijan pact. (2025, August 9). *Al Jazeera*. Retrieved from https://www.aljazeera.com/news/2025/8/9/iran-rejects-planned-transit-corridor-outlined-in-armenia-azerbaijan-pact (in English)
3. Mackinnon, A., Ivanova, P., & Rathbone, J. P. (2025, August 8). Trump rebrands trade route in Armenia-Azerbaijan peace deal. *Financial Times*. Retrieved from https://www.ft.com/content/fbcfa3b5-3422-412f-8888-cb13111b2099 (in English)
4. Mammadov, A. (2025, May 7). Time to adjust the US approach to the South Caucasus. *Atlantic Council*. Retrieved from https://www.atlanticcouncil.org/blogs/turkeysource/time-to-adjust-the-us-approach-to-the-south-caucasus/ (in English)
5. Mammadova, G. (2025, April 17). Historic first in Tbilisi: Armenia, Azerbaijan and Georgia trilateral talks. *Topchubashov Center*. Retrieved from https://top-center.org/en/expert-opinion/3743/historic-first-in-tbilisi-armenia-azerbaijan-and-georgia-trilateral-talks (in English)
6. Meister, S. (2021). Shifting geopolitical realities in the South Caucasus. *Stockholm Centre for Eastern European Studies*. Retrieved from https://www.ui.se/globalassets/evenemang/bilder-till-programmen/sceeus/shifting-geopolitical-realities-in-the-south-caucasus.pdf (in English)

7. Miholjcic Ivkovic, N. (2024, December 24). Trump 2.0: Will the South Caucasus see more engagement or neglect? *Caucasus Edition.* Retrieved from https://caucasusedition.net/trump-2-0-will-the-south-caucasus-see-more-engagement-or-neglect/ (in English)
8. Nadjafova, M. (2025, August 9). Marco Rubio: We congratulate Azerbaijan and Armenia on a new era of peace. *Azertac.* Retrieved from https://azertag.az/en/xeber/marco_rubio_we_congratulate_azerbaijan_and_armenia_on_a_new_era_of_peace-3693211 (in English)
9. Shalal, A. (2025, August 9). Trump announces peace agreement between Azerbaijan and Armenia. *Reuters.* Retrieved from https://www.reuters.com/world/trump-announces-peace-agreement-between-azerbaijan-armenia-2025-08-08/ (in English)
10. Stawarz, P. (2022). Changing power dynamics and new geopolitical reality in the South Caucasus. *Studia Wschodnioeuropejskie, 16.* Retrieved from https://swe.uw.edu.pl/16.4.pdf (in English)
11. Ministry of Foreign Affairs of the Russian Federation. (2025, August 9). Commentary of the official representative of the MFA of Russia M. V. Zakharova regarding the negotiations of the leaders of Azerbaijan and Armenia in Washington (USA). *MFA of Russia.* Retrieved from https://mid.ru/ru/foreign_policy/news/2040852/ (in Russian)